**UOT:** 297; 297.18
**KBT:** 86.38
**DOI:** 10.33864/2617-751X.2024.v7.i2.90-101
**MJ №** 212

# “Haqqun-nas” və onun ictimai təsirləri

**Nicat Yəhyazadə**[*]

**Abstrakt.** Hər bir insan fərdi vəzifələrdən əlavə ictimai vəzifələri də yerinə yetirmək üçün məsuliyyət daşıyır. Bunun əsas səbəbi isə insanın ictimai varlıq olmasıdır. Ona görə də hər bir kəsin əməl və rəftarları təkcə onun özündə deyil, cəmiyyətdə də öz müsbət və mənfi təsirini göstərir. Haqqun-nas mövzusu hər bir cəmiyyətin gündəlik həyatda rastlaşdığı aktual bir məsələdir. İslam dini xüsusi ilə də Quran ayələri bir çox ictimai mövzuları özündə ehtiva etdiyi kimi, haqqun-nas məsələsinə də olduqca dəyər verir. Haqqun-nas dedikdə insanların əmlakını qorumaq, onların həyatına ziyan toxundurmamaq və insanların şərəf və heysiyyətinə hörmətlə yanaşmaq nəzərdə tutulur.

Bu məqaləni yazmaqda əsas məqsəd, haqqun-nasa riayət etməyin cəmiyyətəki təsirlərini araşdırmaqdır. Aparılan tədqiqata əsasən cəmiyyətin həmişə ehtiyac duyduğu ictimai təhlükəsizlik, mənəvi inkişaf, ictimai şəfqət və psixoloji tarazlıq kimi yüksək əhəmiyyətə malik olan məsələlər, haqqun-nasa riayət etməyin cəmiyyətdəki ən əsas təsirləridir. Belə bir xüsusiyyətlərə sahib olan cəmiyyət isə sağlam və ideal bir cəmiyyət sayılır. Hazırkı məqalə təsviri-analitik qaydada, məzmun analizinə əsaslanaraq dini mətnlərdən istifadə etməklə tədqiq edilmişdir. Həmçinin bu məqalə fənlərarası araşdırma sayılır, çünki əxlaq, hüquq, sosiologiya və Quran mövzularını özündə ehtiva edir.

**Açar sözlər:** Haqqun-nas, Quran, cəmiyyət, hüquq, ictimai təsirlər

[*] İlahiyyat üzrə fəlsəfə doktoru,
“AcademyGate Publishing”-in tədqiqatçısı (ISNI: 0000000514175052); Bakı, Azərbaycan
E-mail: yahyanecat87@mail.ru
https://orcid.org/0000-0002-2916-1698

**Məqaləyə istinad:** Yəhyazadə, N. [2024] “Haqqun-nas” və onun ictimai təsirləri. *“Metafizika” jurnalı, 7*(2), səh.90-101.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i2.90-101

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 22.01.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 29.02.2024*
*Çapa qəbul edilmişdir: 01.04.2024*

## 1.Giriş

Allah insanı ictimai varlıq xəlq etmiş və onun tərəqqi etməsinin əsaslarını da məhz cəmiyyət vasitəsi ilə formalaşması üçün zəmin yaratmışdır. Buna görə də insan sosial bir fenomendir və maddi-mənəvi ehtiyaclarının bir çoxunu yalnız cəmiyyətdə təmin edə bilir. İctimai əlaqələrdə insan onun haqlarına başqaları tərəfindən diqqətin ayrılmasını istədiyi kimi, özü də digərlərinin haqlarının riayət edilməsi yolunda diqqətsizlik etməsin və onların hüquqlarını ilk növbədə yaxşı tanısın, sonra onlara hörmətlə yanaşsın. Çünki insan fərdi hüquqlarla yanaşı sosial hüquqlara da malikdir.

Hər bir millət özü üçün bir hüquq nəzərdə tutaraq ictimai münasibətlərdə onun əsasında davranır. Bu baxımdan insanların ictimai hüquqlarını təmin etmək üçün xüsusi qanunlar təyin edilmişdir. Lakin ən kamil və ən doğru hüquqi qanunlar, İslam dinində mövcuddur. İlahi vəhydən qaynaqlanan, insan fitrəti əsasında formalaşan və insanın cismi və mənəvi ehtiyaclarından xəbərdar olan İslam dini, həmin ehtiyacları daha yaxşı təmin etməyə qadirdir.

Quran ayələrində və İslami hədislərdə haqqun-nası tanımaq və ona əməl etmək olduqca əhəmiyyət kəsb edir. Belə ki, hətta namazda bir qəsbi sap belə namaz qılanın paltarında olmamalıdır. Namaz insanı yaradanına yaxınlaşdıran əməli bir ibadətdir. Amma həmin əməldə kiminsə hüququ pozularsa, artıq o, öz mahiyyətini itirir. Quran və hədislərdən əlavə insan ağılı, fitrət və ictimai normalar da haqqun-nasa dəyər verir. Buna əsasən, insan ictimai əlaqələrində və ailə münasibətlərində heç kimin haqqını tapdalamamaq üçün özünün rəftar və əməllərini nəzarətdə saxlamalıdır.

## 2.Haqqun-nas sözünün mahiyyəti

Bu söz izavət tərkibli bir termindir. İnsanın haqqına aid və bütün insanlar tərəfindən riayət edilməli olan, hər bir şəxsin canı, malı, namusu, şərəfi və şəxsiyyətinə haqqun-nas deyilir. Haqqun-nas Allah tərəfindən bağışlanmır, lakin Allah özünə aid olan haqqı isə istədikdə bağışlayır". Təfsirçilər haqqun-nas barədə bu fikirdədirlər ki, pozulmuş hüquqları bərpa və islah etməklə, haqqun-nası əda etmək olar. Haqq sahibinin razılığı olmadan haqqun-nas kimsənin boynundan götürülməz. Deməli haqqun-nas haqq sahibindən razılıq almaqla bağışlanar. Təfsir alimləri qeybət və çəkidə aldatmanı da haqqun-nasdan hesab etmişlər. İslam fəqihlərinin nəzərincə, başqasının malını onun icazəsi olmadan qəsb etməyin haram olması, əmanəti sahibinə qaytarmaq və başqasının borcunu onun tələb etdiyi təqdirdə ödəməyin vacibliyi haqqun-nasın nümunələrindən sayılır [Tusi, M.H, c.8, səh.163; Məkki Amuli, M, c.2, səh.42-43; Meşkini, M.Ə, səh.215]. Əxlaq alimləri də haqqun-nasın, insanın özünə rəva bilmədiyini digərlərinə də rəva bilməməkdən ibarət olduğunu demişlər.

**3.Haqqun-nasın növləri**

**3.1.İnsanların əmlakını qorumaq:**

İslam dini baxımından, başqalarının mülkiyyətinə hörmətlə yanaşılmalıdır və başqaları tərəfindən təcavüzə məruz qalmamalıdır. Buna görə, kimsə sələm, rüşvət, fırıldaqçılıq, oğurluq və hər hansı qeyri-qanuni yolla başqasının malını ələ keçirdikdə, əmlak sahibinin razılığını almaq və ya əmlakı geri qaytarmalıdır. Bir çox ayələr bu mövzunun əhəmiyyətini vurğulayır. *“Vay halına əskik satanların! O kəslər ki, özləri insanlardan ölçü ilə bir şey aldıqda, onu tam ölçüb alarlar, Onlar üçün bir şey ölçdükdə və ya çəkdikdə isə onu əskildərlər”.* [Mutəffifin, 1-3. Daha ətraflı məlumat üçün, bu məsələnin qeyd olunduğu digər ayələrə də müraciət edə bilərsiniz: Bəqərə/275; Nisa /29; Rəhman /8-9; Araf /85].

**3.2.İnsanların həyatını qorumaq:**

Bir müsəlmanın canı, İslam dininə görə xüsusi hörmətə layiqdir və təbii ki, onun canının qorunması malının qorunmasından daha üstündür. Buna görə də, insanların canına və sağlamlığına hörmətlə yanaşmaq o qədər əhəmiyyətlidir ki, Allah da Quranda həmin haqqın vacibliyini qeyd edir: *“Ey iman gətirənlər! (Qəsdən) öldürülən şəxsdən sizin üçün qisas almaq hökmü qərara alındı...”* [Bəqərə, 178]. İmam Əli (ə) da bu haqda buyurub: *“Həqiqətən, Allah-taala buyurur: İzzət və cəlalıma and olsun ki, heç bir zalımın zülmündən keçməyəcəyəm. İstər bu zülm əl çalmaq vasitəsi ilə edilmiş miqdarda olsun, istərsə də əlləri sıxmaq sayəsində həyata keçirilsin”* [Məclisi, M.B. (1403), c.6, səh.29-30].

**3.3.İnsanların heysiyyətinə hörmət etmək:**

İnsanların ləyaqəti və abır-həyası da tamamilə toxunulmazdır və bu insanların ən mühüm haqlarından biri sayılır. Buna görə də, insan qeybət, böhtan, ifşaetmə və istənilən digər davranışlarla başqasının ləyaqətinə və şəxsiyyətinə ziyan toxundura bilməz. Çünki əks-təqdirdə onun hüququnu kobud şəkildə pozmuş olur. Allah Quranda bu məsələ ilə bağlı xəbərdarlıq edir: *“(Bir-birinizin eyibini, sirrini) arayıb axtarmayın, bir-birinizin qeybətini qırmayın! Sizdən biriniz ölmüş qardaşının ətini yeməyə razı olarmı?! Bu sizdə ikrah hissi oyadar”. Allahdan qorxun...”.* [Hücurat, 12]. İmam Sadiq (ə) bununla bağlı buyurub: *“Yəni iman sahibinin ləyaqətinə xələl gətirən hər kəs, onu aradan qaldırmalıdır”* [Səduq, İ.B. (1983), c.2, səh.448; Kuleyni, M.Y., c.2, səh.45].

Nəticədə haqqun-nas, İslam dini baxımından geniş bir mənaya malikdir. Başqa sözlə, haqqun-nas demək olar ki, İslam fiqhinin bütün bölmələrində mövcuddur. Beləliklə qeyd etmək lazımdır ki, cəmiyyət öz üzvlərinin hər biri üzərində bir sıra hüquqlara malikdir və onlar bu hüquqlara əməl etməlidir.

İnsanın başqalarından yerinə yetirməyini gözlədiyi işlərə özünün əməl etməsi isə, sağlam ağılın qəbul etdiyi bir məsələdir.

**4.“Haqqun-nas”a riayət etməyin ictimai təsirləri**

Quranda bir çox ictimai mövzular və onların həll yolları bəyan edilmişdir. Ümumilikdə yaradılış aləmi səbəb və nəticə qanunu ilə idarə olunur. Beləliklə cəmiyyətdə yaşayan fərdlərin ayrı-ayrılıqda hüquqlarının tanınması və onlara riayət olunması, heç də təsirsiz olmayacaqdır. Burada haqqun-nasa riayət etməyin ictimai təsirlərini araşdırırıq:

**4.1.İctimai təhlükəsizlik**

Quran, insanları təhlükəsizliyə çağırır və cəmiyyətin sağlamlığını bu amildən asılı olduğunu hesab edir. Qədim dövrlərdən bəri insanlığı narahat edən ən vacib məqamlardan biri də təhlükəsizlik məsələsi olmuşdur. İnsanların yaşadığı ilk dövrlərdən bəri, su və yeməkdən sonra təhlükəsizlik həyatın ən vacib elementlərindən biri sayılıb. Bu məsələ bu gün də öz əhəmiyyətini qoruyub saxlamışdır. Təhlükəsizlik, cəmiyyətdə yaşayan insanların öz həyatının, ləyaqətinin və maddi-mənəvi hüquqlarının qorunduğundan əmin olması deməkdir. Quran çox saylı ayələrdə "təhlükəsizlik" məsələsinin vacibliyinə xüsusi diqqət ayırmış və onun əhəmiyyətini qeyd etmişdir. [Bax: Bəqərə/126; Nəhl/12; Yusif/99].

Təhlükəsizlik, insanın canı, malı, ləyaqəti, əmək və mənzil kimi bütün kateqoriyalara aiddir. Misal üçün insan ləyaqətinin təhlükəsizliyi üçün bir neçə faktı qeyd edirik. Allah Quranda buyurub:

“Ey iman gətirənlər! Bir qövm digərini lağa qoymasın. Ola bilsin ki, onlar o birilərindən daha yaxşı olsunlar... bir-birinizi pis ləqəblərlə çağırmayın... Ey iman gətirənlər! Çox zənnə-gümana qapılmaqdan çəkinin. Şübhəsiz ki, zənnin bə’zisi günahdır. (Bir-birinizin eyibini, sirrini) arayıb axtarmayın, bir-birinizin qeybətini qırmayın! Sizdən biriniz ölmüş qardaşının ətini yeməyə razı olarmı?! Bu sizdə ikrah hissi oyadar” [Hucurat/11-12].

Bu ayədə Allah istehza, güman, araşdırma, qeybət və insanların ləyaqətinə aid bir neçə məsələni vurğulayır və bu əməllərdən çəkinməyə çağırır. Məhəmməd Peyğəmbər (s) də bu barədə buyurub: “Mömininin şərəf və ləyaqətinin toxunulmazlığı onun canının və malının toxunulmazlığı ilə eynidir” [Haşimi Xoyi, M.H, (1400), c.8, səh.391]. Beləliklə, pis əməllərdən və başqalarının hüquqlarına təcavüz etməkdən çəkinmək, Ənkəbut surəsinin 45-ci ayəsinə görə, İlahi əmrlərə itaət etməklə, xüsusən də namaz qılmaqla mümkündür. Məsələn qeybət, yalan, oğurluq, intihar, sələm, zina, böhtan, haram yemək və başqalarının hüquqlarının pozulmasına səbəb olan istənilən hərəkətdən çəkinmək mümkündür. Deməli, insanın namaz vasitəsilə, Allah ilə əlaqə qurması onu başqalarının hüquqlarını pozmaqdan qoruyur və bu da cəmiyyətdə təhlükəsizliyin yaranmasını təmin edir.

## 4.2.Mənəvi inkişaf

Mənəvi inkişaf insanların haqlarını tanımaq və onlara hörmət etməyin digər ictimai təsiri sayılır. Quranda inkişaf sözü işlənməmiş, onun yerinə hidayət sözü gəlmişdir. İnsanın isə həmişə hidayət və doğru yol göstərənə ehtiyacı var. Allah da insanı daim öz səmavi kitabları və elçiləri ilə doğru-düzgün yola istiqamətləndirmişdir. Quranda da hidayət və onun əks mənası olan azğınlıq işlənmişdir:“Biz daha öncə İbrahimə də doğru yolu nəsib etmişdik...” [Ənbiya/51].

İnsanın həyatda bir neçə inkişaf növü var; fiziki inkişaf [Muminun/12-14; Nəhl/78], intellektual inkişaf [Nisa/6] və mənəvi inkişaf [Kəhf/66]. Quranda mənəvi inkişaf əsas inkişaf sayılır və məhz bu növ inkişaf dəyərlidir. Yoxsa bütün insanlar fiziki və əqli inkişafa malikdir. Mükəmməl insanı digər insanlardan fərqləndirən iman və təqvanın artmasıdır. İnsan ancaq fiziki inkişafa diqqət yetirdikdə, öz mənəvi inkişafını unutmuş olur. Bu isə əslində öz yaradılış məqsədini unutmaq deməkdir. “İnsanın iman və təqvası artdıqca saleh əməlləri daha artıq dəyər kəsb edəcək, həyatı yaxşılaşacaq və mənəvi inkişafı daha çox artacaqdır” [Həmədani, M.H, (1404), c.6, səh.243].

Quranda Allah buyurur: “Mallarını Allah yolunda sərf edənlərin halı yeddi sünbül verən bir toxuma bənzər ki, bu sünbüllərin hər birində yüz ədəd dən vardır” [Bəqərə/261].

Bu ayənin izahında deyilir: “Qurani-Kərim insanın əməlini ondan ayrı hesab etmir və hər ikisini bir varlığın müxtəlif forması kimi qiymətləndirir. Bununla yaxşı əməl sahiblərinin saleh əməllər nəticəsində mənəvi inkişafa nail olduğunu bildirir. Belə insanlar hər tərəfə kök atmış və hər tərəfi öz şaxələrinin altına almış məhsuldar toxum kimidirlər” [Şirazi, N.M, (2002), c.2, səh.314].

Beləliklə, cəmiyyəti bir ağaca bənzətmək olar, əslində onun budaqlarından biri isə mənəvi yüksəliş və inkişafdır. Bu budaq başqalarının hüquqlarına riayət etmək nəticəsində bar verir və məhsul yığma mövsümü yəni Qiyamət günü, insan üçün faydalı olur. Bu baxımdan, insan ictimai əlaqələrində və ailə münasibətlərində heç kimin hüququnu pozmamaq üçün öz davranışlarına nəzarət etməlidir. Bunu etməklə, o, Allaha yaxınlaşmış olur. Allaha yaxınlaşmaq isə əslində mənəvi inkişafın özüdür.

## 4.3.Psixoloji tarazlıq

Quran, insanları ictimai təhlükəsizliyə dəvət etdiyi kimi, psixoloji tarazlığı da cəmiyyətin sağlamlığını təmin edən bir amil kimi tanıtdırır. Psixoloji tarazlıq haqqun-nas ilə sıx əlaqədə olan bir məsələdir. Belə olduqda insan həyatın çətinlikləri qarşısında davam gətirən möhkəm güc əldə edir və eləcə də ictimai fəaliyyətdə heysiyyət və özünəinam qazanır. Yalan, qeybət və böhtan kimi günahlar və ümumiyyətlə haqqun-nasın riayət edilməməsi,

mənəvi pozğunluğun yaranmasına və fiziki tarazlığın pozulmasına gətirib çıxarır. Lakin cəmiyyətdə bir-birinin hüquqları riayət olunarsa, psixoloji tarazlıq yaranar və insanlar mənəvi baxımdan nisbətən sağlam həyat tərzi sürər.

Müasir alimlərdən biri yazır: “Dini qaydalara riayət etmək ictimai həyatın şəffaflığı, onun sağlamlaşdırılması, hüquqların qorunması və ədalətin bərpa edilməsinə əsaslı şəkildə kömək edəcəkdir. Əks təqdirdə, bütün bunlar iqtisadi zülmün artmasına, insanlar arasında ayrı-seçkiliyə, sıxıntılı məişət problemlərinə, əxlaqi tənəzzülə, təlim-tərbiyənin pozulması və istedadlı insanlardan səmərəli istifadə edilməməsinə, cəmiyyətin psixoloji balansının məhvinə və bir çox fərdi və ictimai problemlərə səbəb olacaqdır” [Həkimi, M.R, c.5, səh.557]. Beləliklə, əgər cəmiyyətdə hər bir şey öz yerin tutarsa, insanların hüquqları qorunacaq və nəticədə sağlam bir cəmiyyət formalaşacaq. Burada misal olaraq meritokratiya, yəni ləyaqətə görə seçim etməyi qeyd etmək olar. Quranda da həqiqi sahiblərinə qaytarmalı olan bir sıra vəzifələr, məsuliyyətlər və əmanətlər qeyd olunub: *“Həqiqətən, Allah sizə əmanətləri öz sahibinə qaytarmağı əmr edir”* [Nisa/58].

Bu ayəni daha çox izah və dərk etmək üçün, Peyğəmbərin (s) həyat yoluna müraciət edək. Peyğəmbərin (s) həyat tərzində meritokratiya - ləyaqətə görə seçim xüsusi yer tuturdu. İslam peyğəmbərinin baxışında şəxsi fəzilət və üstünlük yeganə meyar deyildi, əksinə o iman və bağlılıqla yanaşı, “ləyaqət prinsipi”ni də rəhbər tuturdu. Bir hədisdə deyilir: “Bir gün Məhəmməd (s) peyğəmbərin böyük səhabəsi Əbuzər o həzrətə buyurdu ki, mənə bir vəzifə vermirsən? Həzrət mübarək əlini, Əbuzərin çiyninə vurub buyurdu: Əbuzər, səni çox istəyirəm və özümə bəyəndiyim hər bir şeyi sənin üçün də istəyirəm, lakin vəzifə və məsuliyyət bir əmanətdir və insan onun öhdəsindən ləyaqətlə gəlməzsə, Qiyamət günü rüsvay və peşiman olar və Peyğəmbər (s) bu cümləni qeyd etdi: “Səni idarəçilikdə zəif görürəm, buna görə heç vaxt hətta iki nəfərin əmanətini qəbul etmə və yetim mala nəzarəti öz üzərinə götürmə” [Tusi, M.H, səh.384].

Bu hədis əsla Əbuzərin dəyərsiz olmasına dəlalət etmir, çünki Peyğəmbərimiz (s) şəxsən dəfələrlə onu ən yaxşı xüsusiyyətlərlə tərif etmişdir. Bu misal onu göstərir ki, ləyaqətlilik prinsipi İslam peyğəmbəri baxımından o qədər əhəmiyyətlidir ki, hətta Əbuzər kimi şəxsə vəzifə verməkdən imtina edir. Çünki onda idarəçilik qabiliyyəti görmür. Cəmiyyətin yaxşı idarə olunması insanların haqqıdır və ləyaqətlə yerinə yetirilərsə, cəmiyyətin bir çox problemi öz həllini tapar. Düzgün idarə olunan cəmiyyətdə də psixoloji tarazlıq öz yerini tutar. Əgər layiq olmayan kəsə tapşırılarsa insanların haqqı tapdalanmış olar.

### 4.4.İctimai şəfqət və sevginin yaranması

İnsan ictimai varlıq olduğu üçün daim sevgi və şəfqətə ehtiyacı var. Cəmiyyətdə şəfqət bir neçə təbəqəyə bölünür. O cümlədən valideynə sevgi, Allaha ibadət etməkdən sonra, sevginin ən yüksək səviyyəsidir. Quran ayələrində açıq şəkildə qeyd olunur ki, valideynlərə, yaxın qohumlara, yetimlərə, yoxsullara və qonşulara ehsan və şəfqət göstərilsin. İslam dini, övladı hətta öz kafir valideynini, şəfqətindən məhrum etməməyi tapşırır [Bax: İsra/23, Bəqərə/36, Ənam/151]. Şəfqət, övlad ilə sağlam münasibət qurmaqda ən yaxşı tərbiyə üsuludur. Həyat yoldaşına diqqət göstərmək, ailənin sağlam yaşamasını və ailənin fundamental dayağını təşkil edir. Şəfqət, müəllimlə şagird arasında qarşılıqlı əlaqədə elmin və biliyin kəmiyyət və keyfiyyət baxımından inkişafının təminatıdır. Qohumlarla və yaxınlarla sağlam və düzgün münasibət, insanın şəxsiyyətini formalaşdırır və onun ictiami əlaqələrini möhkəmləndirir. Bu baxımdan, İslam dininin vurğuladığı qohumlarla əlaqələri qorumaq istiqamətində onlara, xüsusilə də qan qohumlarına şəfqət göstərmək bu məqsədə nail olmaq üçün, İslam dininin ən uğurlu və ən gözəl üsulu sayılır. Bunlar bəşəriyyətin ictimai həyatının ayrılmaz məsələləridir. Lakin bunları əldə etmək o qədər də asan deyil, əksinə bir sıra vasitələr tələb edir. Onlardan ən mühümü başqalarının hüquqlarına hörmət etməkdir. Bunun bəhrəsi isə, ictimai şəfqətin yaranmasıdır. Şəfqət insan həyatında o qədər təsirlidir ki, Allah Peyğəmbərin (s) missiyası qarşılığında ümmətdən yalnız onun yaxınlarına sevgi istəyir: *“De: "Mən sizdən bunun müqabilində qohumluq məhəbbətindən başqa bir şey istəmirəm...”* [Şura/23].

Bu ayə, çox gözəl şəkildə Quranda şəfqətin yüksək statusa və dəyərə malik olduğunu göstərir. Peyğəmbər (s) ümmətin xoşbəxtçiliyi uğrunda bütün çətinliklərə dözür və nəticədə buyurur: Sizin sevginizdən başqa bir şey istəmirəm. Peyğəmbər (s), bəşəriyyətin ən çox ehtiyac duyduğu hidayəti, Allah tərəfindən insanlara töhfə verdi və əslində hidayət, bəşəriyyətin haqqıdır. Yəni insanı yaradan Allah onu doğru yola hidayət etməlidir. Daha sonra, Allah ümməti onun yaxınlarını sevməyə çağırdı. “Əgər bir dəstə gülün hədiyyə verilməsinə görə minnətdarlıq və mükafat lazımdırsa, bəşəriyyətin xilası üçün hansı mükafat veriləcək?” [Qiraəti, M, (2004), “Nur” təfsiri, c. 10, s.393]. Deməli, haqqun-nasa riayət etməklə sosial şəfqətin yaranması arasında dərin bir əlaqə var. Bu gün isə insan şəfqət və diqqətə daha çox ehtiyac duyur və insanların haqqına riayət etməklə onlarda bir-birinə qarşı şəfqət yaratmaq olar. Necə ki, hədislərdə din sevgi və şəfqət adlandırılmışdır. İmam Baqir (ə) buyurub: ***“Din yalnız sevgi və şəfqət deyilmi?!”*** [Əyyaşi, M.M, (2001), c.1, səh.167]. Həmçinin İmam Sadiq (ə) bu mövzu ilə bağlı buyurub: *“Din sevgi deməkdir, sevgi isə din”* [Bəhrani, H.S, (1995), c.5, səh.105]. Haqqun-nas isə dinin insanlara tapşırdığı ən mühüm məsələdi.

Peyğəmbər (s) də buyurmuşdur: *“İnsanlar tərəfindən sevilmək istəyirsənsə, onlara yaxşılıq et və onların ixtiyarlarında olanlardan gözünü çək”* [Nuri, M.T, (1408), c.4, səh.470]. İmam Əli (ə) bir neçə hədisdə bu məsələ barədə buyurur: *“İnsanlara qarşı yaxşı niyyətdə olan hər kəs onlar tərəfindən sevilər”* [Vasiti, Ə.M.L, (1376), səh.423]. *“Xoş rəftar dostluğa səbəb olar və sevgini möhkəmləndirər”* [Həmin mənbə].*“Üç xislətlə sevgi qazanılar: Xoş rəftar, yaxşı və pis günlərdə insanların yanında olmaq və səmimi olmaq”* [İrbəli, İ, (1381), c.2, səh.343]. Qeyd olunmuş hədislərdən məlum olur ki, cəmiyyətdə bəzi rəftarlar ictimai sevgiyə səbəb olur və onların da əksəriyyəti haqqun-nasla bağlıdır. O cümlədən yaxşılıq etmək, insanların əmlakına təcavüz etməmək, insanlara qarşı yaxşı niyyətdə olmaq bu qismdəndir.

**5.Nəticə**

Tədqiqatın nəticəsi olaraq bunu qeyd etmək olar ki, haqqun-nas Quran və İslami hədislərdə riayət olunmasına olduqca təkid olunmuş çox əhəmiyyətli bir mövzudur. Haqqun-nas dedikdə isə insanların malı, canı və heysiyyəti baxımından onların qorunması və onlara hörmətlə yanaşılması nəzərdə tutulur. Bu isə İslam fiqhinin demək olar ki, bütün sahələrini əhatə edir. Məlum olduğu kimi, cəmiyyətdə haqqun-nasa riayət olunduğu təqdirdə, onun ən mühüm ictimai təsiri insanın canı, malı, ləyaqəti, əmək və mənzil kimi bütün sahələrə aid olan təhlükəsizliyin yaranmasıdır. Hərtərəfli təhlükəsizlik isə hər bir cəmiyyətin vacib şərtlərindən biri və onun inkişafında müstəsna rola malikdir. Cəmiyyətin mənəvi inkaşına xüsusi təkan verən səbəblərdən də biri insanların haqqına hörmət edərək onlara riayət etməkdir. İnsanın fiziki, əqli və mənəvi inkişafı vardır. Ən mühümü isə mənəvi inkişafdır. Kamil insanı digərlərindən fərqləndirən də məhz, mənəvi inkişafdır. Bunun formalaşmasında başqalarının haqlarına riayət etməyin əvəzsiz təsiri vardır. Cəmiyyətdə psixoloji balansın haqqun-nasla dərin əlaqəsi olduğu aydın olur. Quran məntiqinə əsasən cəmiyyətin doğru-düzgün idarə olunması, məsuliyyət və vəzifələrin ədalətli bölgüsü və öz layiqli sahiblərinə həvalə olunması, cəmiyyətin ən mühüm haqqıdır. Çünki onlar ilahi əmanətlərdir və həqiqətən ləyaqəti çatan və istedadlı kəslərə verilməlidir. Əks təqdirdə haqqun-nas tapdalanmış və cəmiyyət öz psixoloji tarazlığını itirmiş olur. İctimai sevgi isə hər bir cəmiyyətin ayrılmaz bir hissəsidir. Çünki sevgi və şəfqət insan fitrətindən qaynaqlanır. İctimai sevginin formalaşmasında haqqun-nasa riayət etməyin xüsusi təsiri vardır və onun yaranması üçün gözəl zəmin yaradır. Çünki insanlar fitrətən digərləri tərəfindən daim diqqət və qayğı görmək hissinə malikdirlər. Bunu həyata keçirməyin ən yaxşı yolu isə onların haqlarına hörmətlə yanaşmaqdır.

# ƏDƏBİYYAT

**1.** *Qurani-Kərim*, (2016). (Azərbaycan dilinə tərcümə edənlər: Bünyadov, Z.,& Məmmədəliyev, V.), Bakı.
**2.** Dehxuda, Ə. Ə. (1337). *Lüğətnamə*. “Sirus” nəşriyyatı.
**3.** Əmid, H. (1375). *Fərhənge farsiye Əmid*. (1-ci çap) Əmir Kəbir nəşriyyatı, Tehran.
**4.** Əyyaşi, M. M. (1380). *“Əyyaşi” təfsiri*. “Əl-Mətbəətul-elmiyyə” nəşriyyatı, Tehran.
**5.** Haşimi Xoyi, H. (1400). *Minhacul-bəraəti fi şərhi Nəhcül-bəlağə*. (4-cü çap) “Məktəbul-İslamiyyə” nəşriyyatı, Tehran.
**6.** Həkimi, M. R., və başqaları. (1380). *Əl-Həyat*. (Tərcüməçi Əhməd Aram) “Nəşre fərhənge islami” nəşriyyatı, Tehran.
**7.** Hüseyni Həmədani, M. H. (1404). *“Ənvare derəxşan” təfsiri*. “Lütfi adına kitab mağazası” nəşriyyatı, Tehran.
**8.** İrbəli, Ə. İ. (1381). *Kəşful-ğummə fi mərifətil-əimmə*. “Bəni-Haşim” nəşriyyatı, Təbriz.
**9.** Kuleyni, M. Y. (1407). *Əl-Kafi*. (4-cü çap) “Darul-kutubil-islamiyyə”, Tehran.
**10.** Qiraəti, M. (1383). *“Nur” təfsiri*. (11-ci çap) “Quran dərsləri mədəniyyət mərkəzi” nəşriyyatı, Tehran.
**11.** Leysi Vasiti, Ə. M. (1376). *Uyunul-hikəm vəl-məvaiz*. “Darul-hədis” nəşriyyatı, Qum.
**12.** Məclisi, M. B. (1403). *Biharul-ənvar*. “Əl-Vəfa” müəssisəsi nəşriyyatı, Beyrut.
**13.** Məhəmməd Əli Rizayi İsfahani, M. Ə. (1387). *“Qurani-mehr” təfsiri*. (22 cildli), “Təfsir və pəjuheşhaye təfsire ulume Qurani” nəşriyyatı, Qum.
**14.** Məhəmməd ibn Həsən Tusi, M. H. (1414). *Əl-Əmali*. “Darus-səqafə” nəşriyyatı, Qum.
**15.** Məkki Amuli, M. *Əl-Qəvaidu vəl-fəvaid*. “Mufid kitabxanası” nəşriyyatı, Qum.
**16.** Mirzə Əli Meşkini, *Mustələhatul-fiqh*.
**17.** Nasir Məkarim Şirazi, N. M. (1380). *“Nümunə” təfsiri*. (26-cı çap) “Darul-kutubul-islamiyyə” nəşriyyatı, Tehran.
**18.** Nuri, H. M. T. (1408). *Mustədrəkul-vəsail və mustənbitul-məsail*. “Alul-beyt (ə)” müəssisəsi nəşriyyatı, Qum.
**19.** Seyid Haşim ibn Süleyman Bəhrani, H. S. (1374). *“Əl-Burhan fi təfsiril-Quran” təfsiri*. “Besət” müəssisəsi nəşriyyatı, Qum.
**20.** Səduq, M. Ə. (1362). *Əl-Xisal*. “Camieye müdərrisin” nəşriyyatı, Qum.
**21.** Şah Əbdüləzimi, H. Ə. H. (1363). *“İsna əşəri” təfsiri*. “Miqat” nəşriyyatı, Tehran.
**22.** Təbatəbai, M. H. (1417). *“Əl-Mizan” təfsiri*. (5-ci çap). Camieyi müddərisine hövzeye elmiyyeye Qum, “İslami” nəşriyyatı.
**23.** Tusi, H. (1387). *Əl-Məbsut fi fiqhil-imamiyyə*. (3-cü çap) “Əl-Məktəbul-Murtəzəviyyəti li əhyail-asaril-Cəfəriyyə” nəşriyyatı, Tehran.
**24.** Yəhyazadə, N. (2020). *Haqqun-nas (cəmiyyət və ailənin mənəvi sağlamlığında rolu) – Tematik təfsir*. (1-ci çap) Bakı, “Nurlar” nəşriyyatı.

*“Metafizika” Journal*
***2024, vol 7, issue 2, serial 26, pp.90-101***

# «Хаггун-нас» и его общественное влияние

**Ниджат Яхьязаде***

**Абстракт.** Каждый человек помимо индивидуальных, несет ответственность за выполнение общественных обязанностей. Основной причиной этому является то, что человек - социальное существо. Поэтому действия и поведение каждого человека оказывают свое положительное и отрицательное влияние не только на него самого, но и на общество. Тема «хаггун-нас» является одной из актуальных проблем, с которой сталкивается каждое общество в повседневной жизни. В исламской религии, в частности, аятах Корана отражены многие общественные темы, а также придано большое значение вопросу «хаггун-нас». Под сказанием «хаггун-нас» подразумевается защита имущества людей, не причинение вреда их жизни, уважение их чести и достоинства.

Исследование влияния «хаггун-нас»а на общество является основной целью статьи. Согласно исследованию, соблюдая влияние «хаггун-нас»а на общество, возможно решение важных вопросов общества, таких как - общественная безопасность, духовное развитие, общественное сострадание и психологическое равновесие. Общество, обладающее такими особенностями, считается здоровым и идеальным. Предоставленная статья разработана согласно изобразительно-аналитическим правилам, основывась на анализ содержания в исследовании использованы религиозные тексты. Также статья является междисциплинарным исследованием, включающем в себя вопросы морали, права, социологии и Корана.

**Ключевые слова**: хаггун-нас, Коран, общество, право, общественные влияния

## “Haqq al-Nas” (The Rights of Mankind) and Its Social Impacts

**Nijat Yahyazadeh***

* Доктор философии по теологии,
Исследователь в AcademyGate Publishing (ISNI: 0000000514175052); Баку, Азербайджан
E-mail: yahyanecat87@mail.ru
https://orcid.org/0000-0002-2916-1698

**Цитировать статью:** Яхьязаде, Н. [2024]. «Хаггун-нас» и его общественное влияние. *Журнал «Metafizika», 7(2),* с.90-101.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i2.90-101

**История статьи:**
*Статья поступила в редакцию: 22.01.2024*
*Отправлена на доработку: 29.02.2024*
*Принята для печати: 01.04.2024*

* Doctor of Philosophy in Theology,
Researcher of "AcademyGate Publishing" (ISNI: 0000000514175052); Baku, Azerbaijan
E-mail: yahyanecat87@mail.ru
https://orcid.org/0000-0002-2916-1698

**To cite this article:** Yahyazadeh, N. [2024]. “Haqq al-Nas” (The Rights of Mankind) and Its Social Impacts. *“Metafizika” journal, 7(2),* pp.90-101.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i2.90-101

**Article history:**
*Received: 22.01.2024*
*Accepted: 01.04.2024*

**Abstract.** In addition to individual duties, each person is responsible for fulfilling public duties. The main reason for this is that human beings are social beings. Therefore, everyone’s actions and attitudes have positive and negative effects not only on themselves but also on society. In this regard, the rights of mankind are a significant issue in the daily life of every society. Islam, especially the Quranic verses, attaches great importance to the question of the rights of mankind. Haqq al-Nas means protecting people’s property, not harming their lives, and respecting people’s honor and dignity.

The aim of this research is to explore the impact of conforming to the rights of mankind on society. According to the findings, issues such as public safety, moral development, social compassion, and psychological balance, which society always needs, are the most significant effects of abiding by the rights of mankind. A society with these characteristics is considered healthy and ideal.

This paper is based on religious texts and follows the descriptive-analytical method in content analysis. It may also be considered interdisciplinary research as it deals with issues related to ethics, law, sociology, and Quranic studies.

**Keywords:** Haqq al-Nas, Quran, society, law, social impacts.

## REFERENCES

**1.** *Holy Quran*, (2016). (Translators into Azerbaijani language: Bunyadov, Z., & Mammadaliyev, V.), Baku. (in Azerbaijani)

**2.** Dekhuda, A. A. (1337 SH). *Dictionary*. "Sirus" publishing house. (in Persian)

**3.** Amid, H. (1375 SH). *Farhange Persian Amid*. (1st edition) Amir Kabir publishing house, Tehran. (in Persian)

**4.** Ayyashi, M. M. (1380 SH). *"Ayyashi" interpretation.* "Al-Matbaatul-elmiyya" publishing house, Tehran. (in Arabic)

**5.** Hashemi Khoyi, H. (1400 AH). *Minhajul-baraati fi Sharhi Nahjul-balagha*. (4th edition) "Maktabul-Islamiyya" publishing house, Tehran. (in Arabic)

**6.** Hakimi, M. R., and others. (1380 SH). *Al-Hayat.* (Translated by Ahmad Aram) "Nashre farhange islami" publishing house, Tehran. (in Arabic)

**7.** Huseyni Hamedani, M. H. (1404 AH). *"Anvare Derakhshan" interpretation*. "Lutfi bookstore" publishing house, Tehran. (in Persian)

**8.** Irbali, A. I. (1381 SH). *Kashful-ghumma fi marifatil-aimmah.* "Bani-Hashim" publishing house, Tabriz. (in Arabic)

**9.** Kuleyni, M. Y. (1407 AH). *Al-Kafi.* (4th edition) "Darul-kutubil-islamiyya", Tehran. (in Arabic)

**10.** Qiraati, M. (1383 SH). *"Nur" interpretation*. (11th edition) "Quran lessons culture center" publishing house, Tehran. (in Persian)

**11.** Lacey Vasiti, A. M. (1376 SH). *Uyunul-hikam wal-mawaiz.* "Darul-hadith" publishing house, Qom. (in Arabic)
**12.** Majlisi, M. B. (1403 AH). *Biharul-Anwar.* "Al-Wafa" publishing house, Beirut. (in Arabic)
**13.** Muhammad Ali Rizayi Isfahani, M. A. (1387 SH). *"Quran-mehr" interpretation.* (22 volumes), "Tafsir va pajuheshaye tafsere ulume Qur'an" publishing house, Qom. (in Persian)
**14.** Muhammad ibn Hasan Tusi, M. H. (1414 AH). *Al-Amali.* "Darus-saqafa" publishing house, Qom. (in Arabic)
**15.** Makki Amuli, M. *Al-Qawaido wal-fawaid.* "Mufid library" publishing house, Qom. (in Arabic)
**16.** Mirza Ali Meshkini, *Mustalahatul-fiqh*. (in Arabic)
**17.** Nasir Makarim Shirazi, N. M. (1380 SH). *"Sample" interpretation*. (26th edition) "Darul-kutubul-islamiya" publishing house, Tehran. (in Persian)
**18.** Nuri, H. M. T. (1408 AH). *Mustadrakul-vasail and mustanbitul-masail*. "Alul-bayt (a)" enterprise publishing house, Qom. (in Arabic)
**19.** Sayyid Hashim ibn Suleyman Bahrani, H. S. (1374 SH). *Commentary "Al-Burhan fi tafsiril-Qur'an".* "Beset" enterprise publishing house, Qom. (in Arabic)
**20.** Sadug, M. A. (1362 SH). *Al-Khisal.* "Camieye mudarrisin" publishing house, Qom. (in Arabic)
**21.** Shah Abdulazimi, H. A. H. (1363 SH). *"Isna Ashari" interpretation*. "Miqat" publishing house, Tehran. (in Arabic)
**22.** Tabatabai, M. H. (1417 AH). *"Al-Mizan" interpretation.* (5th edition). Jamiyey muddarisine hovzeye elmiyyeye Qom, "Islami" publishing house. (in Arabic)
**23.** Tusi, H. (1387 SH). *Al-Mabsut fi Fiqhil-Imamiyyah.* (3rd edition) "Al-Maktabul-Murtazawiyati li ahyail-asaril-Jafariya" publishing house, Tehran. (in Arabic)
**24.** Yahyazadeh, N. (2020). *Haqgun-nas (role in the spiritual health of society and family) – Thematic interpretation.* (1st edition) Baku, "Nurlar" publishing house. (in Azerbaijani)